# İlham Əliyev Azərbaycanın uğurlarının banisidir

## O, xalqımızı tarixi inkişaf mərhələsində keyfiyyətcə yeni eraya çıxarmağı bacarıb

**Geniş dünyagörüşünə, dərin və hərtərəfli biliyə, yüksək mədəniyyətə malik olan Prezident İlham Əliyev müasir və çevik siyasətçi kimi beynəlxalq arenada böyük hörmət və nüfuz qazanıb. O, sürətlə dəyişən çağdaş dünyada, qloballaşma və inteqrasiya proseslərində, rəsmi görüşlərdə və apardığı yüksək səviyyəli danışıqlarda Azərbaycanın mənafelərini bütün sahələrdə uğurla müdafiə edir. Ulu öndər Heydər Əliyev məktəbinin layiqli yetirməsi sayılan Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasəti sayəsində Azərbaycanın beynəlxalq və regional problemlərin həllində rolu və nüfuzu getdikcə artır. Təsadüfi deyil ki, hətta qlobal böhranlardan çıxış yolları axtarışında onun fikrinə, rəyinə hörmətlə yanaşılır.**

### "ÖLKƏMİZ DAHA BÖYÜK UĞURLARA İMZA ATACAQ"

**Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov** "Kaspi"yə açıqlamasında qeyd edib ki, ulu öndər Heydər Əli-



yev müasir müstəqil Azərbaycanın qurucusu olmaqla yanaşı, ölkəmizin inkişaf strategiyasının banisidir. Onun sözlərinə görə, Prezident İlham Əliyevin uğuru isə bu strategiyanın qüsursuz şəkildə icrasına əsaslanıb: "Prezident İlham Əliyev eyni zamanda bu xətti zənginləşdirib, yeni dünya düzəni üçün Azərbaycanın oturuşmuş mövqeyini müəyyənləşdirib. Onun apardığı siyasət Vətənimizin yüzilliklərə hesablanmış müstəqillik təminatdır. Bu mənada, dövlət başçımız adını tarixə yazdırmağı bacarmış siyasi liderdir. Prezident İlham Əliyevin dövründə Azərbaycanın inkişaf göstəriciləri həqiqətən heyrət doğurur. Həyatımızın elə bir sahəsi yoxdur ki, orada əsaslı uğur qazanılmasın. Bu gün Vətənimiz dünyaya öz prioritetlərini bəyan edən ölkəyə çevrilib. Bu prioritetlər isə yalnız bizim bir xalq olaraq mövqeyimizin ifadəsinə əsaslanmır, eyni zamanda bəşəri mahiyyət daşıyır. Düşünürəm ki, cənab İlham Əliyevin uğur formulu həm də Azərbaycana bəşəri ideya və prinsiplərin həyata keçirildiyi məkan statusu qazandırmağa söykənir. Baxın, bu günün Azərbaycanı dünyanın ən nüfuzlu beynəlxalq toplantılarının təşkil olunduğu məkandır. Bu günün Azərbaycanı dünyanın nəhəng layihələrinin reallaşdırıldığı qlobal platformadır. Bütün bu tədbirlər isə heç şübhəsiz cənab İlham Əliyevin dövlət başçısı kimi prinsipiallığının, qətiyyətinin nəticəsidir. Əminəm ki, onun rəhbərliyi altında ölkəmiz daha böyük uğurlara imza atacaqdır".

### DÜNYANIN ƏN GÜCLÜ 50 ORDUSU SİYAHISINDA

**Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini, millət vəkili Aydın Mirzəzadə** deyib ki, Prezident İlham Əliyev son 15 ildə dövlətçiliyimizin bütün sahələrində olduğu kimi, ordu quruculuğu sahəsində



də böyük inkişaf əldə edilib. Onun fikrincə, dövlət başçısının Azərbaycanın dövlət müstəqilliyini beynəlxalq aləmdə düzgün qoruması, daxili siyasətin günün tələblərinə uyğun qurulması, iqtisadiyyatımızın inkişafı, ordu quruculuğuna tələb olunan qədər vəsaitin ayrılmasına səbəb olub. Deputat söyləyib ki, ölkə rəhbərinin 2004-cü ildə Azərbaycanın hərbi büdcəsinin qısa zamanda Ermənistanın dövlət büdcəsinə bərabər olacaq bəyanatı doğrudan da reallığa çevrilib: "Bu gün Azərbaycanın hərbi büdcəsi Ermənistanın dövlət büdcəsindən 1 dəfə yarım böyükdür. Müasir silahlar almaq, bu silahları işlədə bilən hərbi heyətin hazırlanması, hərbi hissələrin və müvafiq hərbi infrastrukturun yüksək səviyyədə qurulması, vaxtaşırı döyüş təlimlərinin keçirilməsi cənab Prezidentin apardığı siyasət nəticəsində mümkün ola bilib. Bu gün Azərbaycan ordusu dünyanın ən güclü 50 ordusu siyahısındadır. Ordumuz bu gün regionda stabilliyin və təhlükəsizliyin qorunmasının əsas qarantıdır. Ordumuzun 2 il bundan əvvəl, 2016-cı ilin aprel ayında apardığı uğurlu əməliyyat Ermənistanda indiyə qədər davam edən siyasi böhranın yaranmasına gətirib çıxardı. Bu ilin may ayında Naxçıvanın Günnüt kəndinin və onun ətrafında 11 min hektar ərazinin işğaldan azad edilməsi, əldə olunan yüksəkliklərdən Ermənistandan Azərbaycanın Dağlıq Qarabağ ərazisinə gedən bütün infrastrukturları nəzarət altında saxlamağa imkan verdi".

### HƏRBİ SİYASƏTİN DÜZGÜN APARILMASI

Deputat qeyd edib ki, Prezident İlham Əliyev Ali Baş Komandan kimi üzərinə düşən vəzifələri yüksək səviyyədə yerinə yetirir: "Dövlət başçısının vaxtaşırı cəbhə bölgələrinə getməsi, zabit və əsgər heyəti ilə görüşməsi, onların problemlərini daim diqqətdə saxlaması Azərbaycanın hərbi siyasətinin düzgün aparıldığını göstərir. Bir neçə gün bundan öncə cənab Prezidentin Bakının Sabunçu rayonunda bir qrup hərbiçi zabit ailəsinə dövlət hesabına tikilən mənzillərin təqdim edilməsi göstərdi ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan bu gün ordumuzun bütün məsələlərini diqqətdə saxlayır və bundan sonra da ordunun ölkəmizin müstəqilliyinin qorunmasında əsas faktorlardan biri olmasına böyük diqqət edəcək".

### SİYASİ REALİZMƏ SÖYKƏNƏN FƏALİYYƏT NÜMUNƏSİ

**"Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu** bizimlə söhbətində bildirib ki, Prezident İlham Əliyev funksional baxımdan bayraqdar, yəni, ali və nəcib keyfiyyətlərə sahib, mürəkkəb situasiyanın fonunda xüsusi fəaliyyəti ilə həmrəyliyin və bütövlüyün təmin olunmasına nail olan, faydalı, yəni, özündə



bir çox rasional lider keyfiyyətlərini birləşdirən, təmsilçi, sahib olduğu bütün resurslardan təmsil etdiyi xalqın mənafeyi üçün istifadə edən liderdir. O deyib ki, Prezident İlham Əliyev hakimiyyətin legitimliyinə və fərdi xüsusiyyətlərinə görə həm də xarizmatik və rasional-leqal liderdir. Deputatın fikrincə, Prezident İlham Əliyev pozitiv enerji doğurmaq bacarığı olan, sosial fəaliyyətə üstünlük verən, natiqlik və ünsiyyətlilik məharəti ilə, eyni zamanda, ekstraordinar keyfiyyəti ilə fərqlənən liderdir: "Siyasi lider İlham Əliyev Azərbaycan siyasi sisteminə rasional siyasi davranış modeli təqdim edib. Yəni, məntiqi mühakimələrə və analitik təhlilə əsaslanan, mütərəqqi, pozitiv, milli məqsədlərə xidmət edən siyasi realizmə söykənən siyasi fəaliyyət nümunəsi gətirdi. Beləliklə, radikalizmi, siyasi şantaj və ekstremizmi siyasi sistemimizdən çıxardı. Azərbaycan Prezidenti İlham Əliyev siyasi sistemimizə qüsursuz siyasi mədəniyyət, milli mənəviyyatımıza uyğun siyasi əxlaq standartı, milli siyasi etika nümunəsi gətirdi. Prezident İlham Əliyev demokratiyanın istismarçı siyasi vasitə deyil, milli mədəniyyətimiz və mentalitetimizlə, eyni zamanda, müsəlman sosial-psixoloji kimliyimizlə uzlaşan bir dəyər və yaşam tərzi olduğunu sübut etməklə intellektual əsaslarda yeni demokratik modernist cəmiyyət formalaşdıra bildi. Dövlətimizin başçısı beynəlxalq münasibətləri nəzəri və empirik səviyyədə dərindən bildiyi üçün islamofob dairələrin və anti-Azərbaycançı mərkəzlərin ölkəmizdə yaratmaq istədikləri "idarə olunan xaos" planını məharətlə pozdu. Xalqımızı etnik, siyasi və ideoloji qarşıdurmadan qorudu".

### NEFT GƏLİRLƏRİNİ İNTELLEKTUAL KAPİTALA ÇEVİRMƏK

Millət vəkili bildirib ki, siyasi lider İlham Əliyev islamofobların və infoimperialistlərin müsəlman şərqində uğurla həyata keçirdikləri "lidersizləşdirmə, ideologiyasızlaşdırma və dövlətsizləşdirmə" siyasətinin ölkəmizdə həyata keçirilməsinin qarşısını ustalıqla alıb. Onun qənaətincə, bu hücuma qarşı dəqiq və olduqca incə düşünülmüş milli vətənpərvərlik, milli mənəviyyat və milli ailə sipəri çəkilib. Prezident İlham Əliyev neft kapitalını intellektual kapitala çevirək şüarı ilə kreativ gənclik yetişdirmək məsələsini strateji vəzifə kimi müəyyənləşdirib və Azərbaycanın gələcək inkişafını təmin edib. O əlavə edib ki, dövlətimizin başçısı XXI əsrdə nəhəng transmilli layihələri həyata keçirməklə ən güclü rəqiblərinin kürəyini yerə vurub və bu layihələri müstəqilliyimizin təminatçısına çevirib: "Tarixi İpək Yolunu bərpa etmək üçün bütün müqavimətlərə və rəqabətə baxmayaraq, Bakı-Tiblisi-Qars dəmiryolu xəttinin çəkilişinə nail oldu. Bu strateji qərar ilə türk dünyasını dəmir kəmərlə bir-birinə bağlamaqla onların iqtisadi birliyini təmin etdi. Eyni zamanda, bu layihə Azərbaycanı Asiyaya və Avropaya polad raylarla bağlamış oldu. Dövlətimizin başçısı XXI əsrin iqtisadi möcüzələri sayıla biləcək TANAP və TAP layihələrini reallaşdırdı. Bu layihələrin reallaşması üçün diplomatiya tarixində görünməmiş təzyiqlərə, hətta təhdidlərə belə məruz qalmasına baxmayaraq, çox nəhəng ölkələrin dizini yerə gətirdi. Beləliklə, Trans-Anadolu və Trans-Adriatik qaz kəmərləri layihələrinin müəllifi kimi tarixə düşdü. Ölkəmizdə və xaricdə böyük investisiya layihələri həyata keçirməklə iqtisadiyyatımızın neftdən asılılığına son qoydu. Azərbaycanı kosmik sənaye ölkəsinə çevirdi. Qısacası Prezident İlham Əliyev xalqımızı tarixi inkişaf mərhələsində keyfiyyətcə yeni eraya çıxarmağı bacardı".

### SOSİAL SİYASƏTİN ƏSASINDA İNSAN AMİLİ DAYANIR

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynov** da deyib ki, Prezident İlham Əliyevin yorulmaz fəaliyyəti nəticəsində 15 ildə ardıcıl olaraq həyata keçirilmiş tədbirlər, icra edilmiş proqramlar sayəsində əhalinin aztəminatlı təbəqəsinin ümumi əhali nisbətində xüsusi çəkisi xeyli azalıb, yoxsulluq 49 faizdən 5 faizə düşüb. Onun sözlərinə görə, son 15 ildə əhalinin sayı 1,5 milyon nəfər artsa da, işsizliyin statistikasında azalan temp saxlanılıb və hazırda Azərbaycanda işsizliyin səviyyəsi hətta bir sıra Avropa ölkələrindən aşağıdır: "Azər-



baycan dövlətinin sosial siyasətinin əsasında insan amili və onun rifahı dayanır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial siyasət Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biridir və bu siyasət ölkəmizdə insanların daha firavan yaşayışını təmin etməyə yönəlib. Bunun nəticəsidir ki, Azərbaycanın dövlət büdcəsi də sosial yönümlüdür. Hətta dünyada maliyyə-iqtisadi böhran dövründə Azərbaycan sosial siyasətindən bir addım geri çəkilməyib, heç bir sosial layihə təxirə düşməyib. Azərbaycanın sosial siyasət sahəsində gördüyü işlər beynəlxalq aləmdə də yüksək qiymətləndirilir. Ölkəmiz sosial müdafiəni və sosial ehtiyacların ödənilməsini özündə ehtiva edən BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulub və bu məqsədlərin həyata keçirilməsi istiqamətində mühüm işlər görüb. Prezident İlham Əliyevin rəhbərliyi altında inkişaf edən Azərbaycan bu sahədə bir çox ölkələrdən önə keçməyi bacarıb".

**Rufik İSMAYILOV**